**Təsdiq edirəm:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_______________

27.03.2024-cü il

**Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi**

| Sıra №-si | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər (əlaqələndiricilər) |
|---|---|---|---|---|
| 1. | Yaşıl istiqrazlar və davamlılıqla əlaqəli kreditlər kimi davamlı maliyyə imkanlarının araşdırılması və nəticələri üzrə təkliflərlə birlikdə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.06.2024 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən Sahibkarlığın İnkişafı Fondu), (“Azərbaycan Beynəlxalq Bankı”ASC cəlb olunmaqla) | Ataxan Həsənov, Cavid Hüseynli, Nicat Eyvazzadə, Vüsal Şahverdiyev |
| 2. | “Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2023-cü il üçün Yol Xəritəsi”nin 3.2-ci bəndinin icrası çərçivəsində müəyyən edilmiş prioritet sektorlar nəzərə alınmaqla, ESG üzrə müvafiq standartların (ESG-nin elementləri haqqında ətraflı məlumatlar) siyahısının təsdiq edilməsi | 01.05.2024 | İqtisadiyyat Nazirliyi (Azərbaycan Standartlaşdırma İnstitutu, Sahibkarlığın İnkişafı Fondu) (“Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan) cəlb olunmaqla) | Gülbacı Əliyeva, Cavid Hüseynli, Ceyhun Atayev |
| 3. | ESG ilə bağlı müəssisə və təşkilatlarda KPI (Key Performance Indicators) qiymətləndirmə sisteminin yaradılması ilə bağlı metodologiyanın (təkliflərin) hazırlanaraq, “Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları üzrə” altqrupda (bundan sonra - altqrup) müzakirə edilməklə Komissiyaya təqdim olunması | 01.09.2024 | İqtisadiyyat Nazirliyi (Sahibkarlığın İnkişafı Fondu), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Cavid Hüseynli, Mətanət Musayeva |
| 4. | Müəyyən edilmiş ESG standartları əsasında ESG üzrə hesabatlılıq çərçivəsinin (formasının) hazırlanaraq, altqrupda müzakirə edilməklə Komissiyaya təqdim olunması | 01.10.2024 | Azərbaycan İnvestisiya Holdinqi, “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC (AMCHAM Azərbaycan və “Ernst & Young Holdings (CIS) B.V.” şirkəti cəlb olunmaqla) | Vahid Məmmədzadə, Ceyhun Atayev, İlahə Əmirbəyova, Fidan Sadıxlı |

| | | | | |
|---|---|---|---|---|
| 5. | Bizneslərin ESG üzrə qiymətləndirilməsinə dair metodologiyanın layihəsinin hazırlanaraq, altqrupda müzakirə edilməklə Komissiyaya təqdim olunması | 01.09.2024 | Dövlət Neft Şirkəti, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Mərkəzi Bank, "Azərbaycan Sənaye Korporasiyası" ASC ("Smart Solutions Group" şirkəti cəlb olunmaqla) | İsmayıl Süleymanov, Elmar İsayev, Ataxan Həsənov, Azad Aslanov, Kənan Tabasaranskiy |
| 6. | Ölkədə ESG-nin elementləri (ətraf mühit, sosial və korporativ idarəetmə) üzrə, eləcə də enerji səmərəliliyi, bərpa olunan enerji sahəsində qanunvericilik və tənzimləmə bazasının inkişafı və təkmilləşdirilməsinə dair layihə sənədlərinin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ətraf mühit məsələləri üzrə), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (sosial məsələlər üzrə), İqtisadiyyat Nazirliyi (idarəetmə məsələləri üzrə), Energetika Nazirliyi | Leyla Əliyeva, Nazim Şahbazov, Nicat Eyvazzadə, Asəf Rzayev |
| 7. | Siyahısı təsdiq edilmiş müvafiq ESG standartlarının KOB müəssisələrində tətbiqi, həmin standartlar əsasında müəssisələrin personalı üçün təlimlərin təşkili və sertifikatlaşdırma ilə bağlı tədbirlərin görülməsi | Standartlar qəbul olunduqdan sonra mütəmadi | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Standartlaşdırma İnstitutu, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Elmar İsayev, Gülbacı Əliyeva, Səməd Həsənov, Leyla Əliyeva, Nazim Şahbazov |
| 8. | ESG ilə bağlı təlimlər və məlumatlandırma tədbirlərinin davam etdirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Standartlaşdırma İnstitutu), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ("Kapital bank" ASC cəlb olunmaqla) | Elmar İsayev, Mətanət Musayeva, Gülbacı Əliyeva, İlahə Əmirbəyova, Elçin Mustafayev |
| 9. | ESG sahəsində ölkədə mövcud təşəbbüslərlə bağlı qarşılıqlı məlumat mübadiləsinin aparılması və fəaliyyətlərin əlaqələndirilməsi | | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (BMT Baş Saziş platforması cəlb olunmaqla) | Elmar İsayev, Samir Məmmədov, İlahə Əmirbəyova |
| 10. | Banklarda ESG prinsiplərinin korporativ idarəetmə sisteminə inteqrasiyası üzrə qiymətləndirmənin aparılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | 01.10.2024 | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası, "Azərbaycan Beynəlxalq Bankı" ASC və "Kapital bank" ASC cəlb olunmaqla) | Ataxan Həsənov, Vüsal Şahverdiyev, Elçin Mustafayev |
| 11. | ESG təşəbbüslərini dəstəkləyən təşkilatların qrantlar üçün müraciət etmə imkanlarının qiymətləndirilməsi və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | Mütəmadi | Altqrupda təmsil olunan bütün aidiyyəti qurumlar | Altqrupun bütün üzvləri |